Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Stabil ailə artımı probleminə dövlət müdaxiləsinin yeni mərhələsi gəlib...

**Demoqrafik proses iqtisadi, siyasi və digər sosial proseslərin təsiri altında inkişaf edir. Bu isə öz növbəsində bütün digər sosial proseslərin gedişatına təsir göstərir. Bu gün qlobal demoqrafik problemin əhəmiyyəti dünya iqtisadiyyatında, xüsusən inkişaf etməkdə olan ölkələrdə sürətli artım təhlükəsini dərk edən bütün dövlətlər tərəfindən tanınır.**

**Demoqrafik inkişaf səviyyəsi milli maraqların təhlükəsizliyinə birbaşa təsir edir**

Əhali artımının iqtisadiyyata təsirinin bəzi məqamlarını nəzərdən keçirəndə qeyd etmək lazımdır ki, say artımı daxili bazarda artıma səbəb olur. Bu amil, xüsusilə milli istehsalın gücləndirilməsinə zəmin yaratdığına görə adambaşına təbii ehtiyatların nisbətinin böyük olduğu inkişaf etməkdə olan və ya az məskunlaşan ölkələrdə təsirli olur. Digər tərəfdən əhalinin artması istehsal miqyaslı iqtisadiyyatların yaranmasına gətirib çıxarır ki, bu da yalnız bir insana lazımi minimum investisiyanı qoymağa imkan verir. Həmçinin əhali kütləsinin artması ilə tələb avtomatik olaraq böyüyür və kapital genişlənməsi də baş verir. Ölüm səviyyəsinin azalması səbəbindən əhalinin artması iqtisadi fayda deməkdir, burada uşaqların əmək yaşına qədər yaşaması və sonrakı əmək fəaliyyəti böyüməlləri, tərbiyələri, təhsilləri və s. ilə bağlı xərcləri kompensiya edir. Son iyirmi ildə Azərbaycan Respublikası Hökuməti 1994-cü ildə dünyanın 179 dövləti, o cümlədən Azərbaycan tərəfindən təsdiq edilmiş Qahirə Proqramının müddəalarına uyğun olaraq, əhalinin inkişafı sahəsində bir sıra fəal hərtərəfli tədbirlər həyata keçirir. Ölkə hökuməti insan amilinin inkişafına qoyulan investisiyaların sabit iqtisadi böyümənin və yüksək səmərəli inkişafın əsası olduğunu qəbul etdi. Konfransdan sonra Azərbaycan Respublikası Hökuməti əhali ilə bağlı problemlərin siyasi proqramlara və inkişaf strategiyasına daxil edilməsi ilə bağlı hərtərəfli bir metod əsas götürüb. Qahirə konfransından 22 il sonra dünya ölkələrində və xüsusən də Azərbaycanda davamlı iqtisadi böyümənin demoqrafik cəhətlərinin aktual olduğu və tez-tez yeni məzmunla doldurulması simvolikdir. Dövlət siyasəti milli dövlət maraqları əsasında qurulur. Demoqrafik inkişaf səviyyəsi iqtisadi artım səviyyəsinə, dövlətin müdafiə qabiliyyətinə və milli maraqların təhlükəsizliyinə birbaşa təsir edir. Bu baxımdan əhali siyasətinə milli təhlükəsizlik sahəsində siyasi fəaliyyətin əsas elementi kimi baxmaq lazımdır. Milli təhlükəsizlik siyasətinin demoqrafik cəhəti, ilk növbədə, vətəndaşların həyatının qorunmasını, habelə insan ömrünün artması, demoqrafik çoxalmanın səmərəliliyi səviyyəsinin artması və demoqrafik azadlıqların genişlənməsi ilə bir-biriylə əlaqəli olan təbii çoxalma proseslərini təmin etməkdir.

**Doğum nə az, nə çox, düz 60 faiz azalıb...**

Ümumilikdə, demoqrafiya məsələlərinin işıqlandırılması, cəmiyyətdəki demoqrafik dəyişiklikləri və onların sosial, iqtisadi təsirlərini təhlil edərək, bu məsələlərin ictimaiyyətin diqqətinə çatdırılmasıdır. Bu işıqlandırma, gender bərabərliyi, ailənin sosial institut kimi rolu, əhali artımı və ya azalması kimi məsələlərə toxunur və bu mövzular dövlət siyasətinə və cəmiyyətin gələcəyinə təsir etdiyi üçün vacib hesab olunur. Dövlətin əsas sütunlarından biri də stabil əhali artımıdır. Son illər Azərbaycanın demoqrafik göstəricilərində azalma tendensiyası özünü göstərir. Düzdür, əhalinin sayı artır, amma artım dinamikası aşağıdır, əvvəlki illərdəki kimi deyil. Bir neçə il əvvəl ildə 150-170 min uşaq dünyaya gəlirdisə, bu il bu, 100 mindən də aşağı düşəcəyi gözlənilir. Bu ilin ilk yarısında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində 45 min 616 doğulan körpə qeydə alınıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 6.3 faiz azdır. Doğum nə az, nə çox düz 60 faiz azalıb. 2014-cü ildə Azərbaycanda 170 min 503 uşaq doğulmuşdu. O baxımdan demoqrafik azalmanı önləmək üçün nə kimi tədbirlərin görülməsinə ehtiyac var?



**Gənc ailələri işlə təmin etmək, onların mənzil şəraitinin yaxşılaşdırılması vacibdir**

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən tarix elmləri doktoru Məhərrəm Zülfüqarlının fikrincə, əhali artımı hər bir ölkənin sosial vəziyyətinin göstəricisi də hesab oluna bilər: "Bəzi ölkələrdə əhali artımına xüsusi qayğı, diqqət var. Məsələn, hər doğulan uşağa görə uşaqpulu verilməsi, çoxuşaqlı ailələrə xüsusi qayğı göstərilməsi bura daxildir. Tənqid etdiyimiz SSRİ dövründə çoxuşaqlı analar təltif edilirdi. Belə ki, 10 uşağı olan analara "Qəhrəman ana" ordeni verilirdi. Beş-altı uşağı olan analara medal verilirdi. Bunun arxasında maddi təminat da var idi. Bütün bunlar ailələri həvəsləndirirdi. Xüsusən 1945-ci ildə müharibə bitdikdən sonra sovet dövründə əhali artımına çox diqqət edirdilər. O vaxt Azərbaycanın da müharibədə çox itkiləri oldu. Ancaq o zaman əhali artımı yüksək idi. Son illər məlum olduğu kimi, bir sıra sosial və digər səbəblər üzündən əhali artımı elə də yüksək deyil. Ona görə də əhalinin artımına xüsusi qayğı göstərilməsinə ehtiyac var. Bunun üçün birinci növbədə uşaqpulu məsələsi yoluna qoyulmalıdır və gündəmə gəlməlidir. Əsasən də parlamentdə deputatlar buna xüsusi diqqət etməlidilər. Parlamentdə olan deputatların mütləq əksəriyyəti uşaq olarkən o uşaqpuludan bəhrələniblər. Bundan başqa, təbliğatı artırmaq lazımdır. Maarifləndirməyə xüsusi önəm verilməlidir. Bir də gənc ailələrə qayğı göstərmək lazımdır. Bunun üçün başlıcası onları normal işlə təmin etmək lazımdır. Bir də mənzil şəraitinin yaxşılaşdırılması vacibdir. Azərbaycanda işsizlik, az maaş və mənzil problemi üzündən cavanlar evlənməkdə tərəddüd edir. Ya da evlənəndən sonra sosial qayğılar üzündən ailədə bir və ya iki uşağın olmasına üstünlük verirlər. Əhali artımının aşağı düşməsi həm də bununla əlaqədardır. Gənc ailənin büdcəsi 1000 manatdırsa və onun 500 manatı kirayəyə gedirsə, o zaman o ailədə artımdan danışmaq olmaz. Bir sözlə, ailələrin sosial təminatına xüsusi önəm verilməlidir".

***Vidadi ORDAHALLI***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***